# Yeniyetmələrin milli-mənəvi dəyərlər əsasında tərbiyəsində bədii əsərlərin müzakirəsinin rolu

**Şirinbəyim Mürşüd qızı Nadirova**
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** shirin.oruclu@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. L.N. Qasımova,
p.ü.f.d., dos.N.B. İmamverdiyeva

**Açar sözlər:** yeniyetmə, milli-mənəvi dəyərlər, tərbiyə, xalq, müzakirə, dastanlar, sinifdənkənar tədbir

**Ключевые слова:** подросток, национальные моральные ценности, воспитание, народ, дискуссия, эпосы, внеклассные мероприятия

**Key words:** teenager, national-moral values, upbringing, people, discussion, epics, extracurricular activities

Mədəniyyət tarixi sahəsində qazanılmış təcrübə sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.

Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olmuşdur ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Azərbaycanın milli dəyərləri orta əsrlərdə formalaşmış və göründüyü kimi, o vaxtdan bəri çox az dəyişmişdir. Azərbaycanlıların çox vaxt türk-islam dəyərləri adlandırılan əxlaq qaydaları toplusunun özəyi orta əsrlərdəki türk hərbi-feodal şərəf kodeksinin təsiri altında formalaşmışdı. Bu kodeks haqqında məlumatı "Dədə Qorqud" (XI əsr) və "Koroğlu" (XVI əsr) kimi türk dastanlarından almaq olar: Ya hər şey - ya heç nə; Məğlubiyyət - ölümdən pisdir; Kömək diləmək - ayıbdır; Şücaət xeyirdən yeydir; Qənaət - xəsislikdir; Ehtiyatlılıq - qorxaqlıqdır; Qonaq - Allahındır; Ailə - müqəddəsdir; Söz verdinsə - əməl elə; Qadının namusu - toxunulmazdır. Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqımıza mənsub olan dahi şairlərimiz, yazıçılarımız - Nizami, Yunus Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtimqulu, Abay və digərləri tariximizi, mənəvi dəyərlərimizi əks etdirən, bizi dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqlarımızı özünəməxsus milli-mənəvi dəyərlər o cümlədən, ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir.

Milli-mənəvi dəyərlərin qorunub saxlanılması dövlətimizin ən mühüm vəzifələrindən biridir. Mədəni sərvətlərin qorunub saxlanılması və istifadəsi problemləri ölkənin Əsas Qanununda – Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli tarix və mədəniyyət abidələrini qorumalıdır".

Milli-mənəvi dəyərlərimizin qorunması, onların müəyyən bir çərçivədə təbliği əsas məsələlərdən biri kimi hər bir azərbaycanlını düşünməyə vadar edir. Zamanın müxtəlif illərində milli-mənəvi dəyərlərimiz meyar olaraq, xalqın milli düşüncəsinə, onun bir vətəndaş kimi formalaşmasına təsirini göstərmiş, bu gün də yetişən nəsil, məhz bu prosesin içərisində özünü, azərbaycançılıq məfkurəsini dərk edərək, mövqeyini müəyyənləşdirməlidir. Sözsüz ki, mənəvi dəyərlərin inkişafı ziyalılar nəslinin cəmiyyətə təsir gücündən, eləcə də, mənəviyyatımızı yaşadan dəyərlərin geniş bir məkanda təbliği əsasında reallaşır.

Milli və ümumbəşəri mənəvi dəyərlərin mənimsənilməsi insan mənəviyyatının və dünyagörüşünün formalaşmasında çox mühüm rol oynayır. Onlar bəşər sivilizasiyasının meydana gəldiyi vaxtdan bəri keçilmiş tarixi mərhələlərdən süzülüb gələrək zənginləşmiş, şüurlara həkk olunmuş, laylalarda, atalar sözlərində, nağıllar və dastanlarda, rəvayətlərdə, yazılı ədəbiyyatda, mütəfəkkirlərin və müdriklərin deyimlərində əks olunmuşdur.

Yeniyetmələrin milli-mənəvi dəyərlər əsasında tərbiyəsində mühüm rol oynayan yollardan biri də sinifdənkənar tədbirlərdir. Sinifdənkənar tədbirlər məktəbdə həyata keçirilən təlim-tərbiyə prosesinin tərkib hissələrindəndir. Bu işin həyata keçirilməsi pedaqoji kollektiv və özünüidarə təşkilatlarının üzərinə düşür. Sinifdənkənar tədbirlər vasitəsilə şagirdlərin dərsdə aldıqları bilik, bacarıq və vərdişlər daha da dərinləşir və möhkəmlənir. Bunlar biliyin yoxlanılması, təcrübə ilə müqayisəsi, sınaqdan keçirilməsi meydanıdır. Görkəmli pedaqoq V.A. Suxomlinski qeyd edirdi ki, "Sinifdənkənar iş öz ideyasına görə çox qiymətli tərbiyə vasitəsidir. Məhz burada müəllimlə şagird arasında daimi mənəvi ünsiyyət yaranır ki, bunsuz yüksək emosional mədəniyyət tərbiyəsi ola bilməz".

Sinifdənkənar işlərin səmərəli formalarından istifadə edilməsi təlim-tərbiyənin yüksək səviyyədə qurulmasına və yeniyetmələrin hərtərəfli inkişafına təsir göstərir. Bunlar yeniyetmələrin görüş dairəsini genişləndirmək, təşkilatçılıq, fəallıq, müstəqillik və yaradıcılıq qabiliyyətini inkişaf etdirmək və düzgün davranış vərdişlərini yaratmaqla yanaşı, onlarda milli-mənəvi dəyərlərə hörmət, məhəbbət tərbiyə etməyin vasitələrindən birinə çevrilir.

Yeniyetmələrin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinə yönəldilən sinifdənkənar tədbirlərin kompleks şəkildə aparılması daha çox səmərə verir. Onlar yeniyetmələrin hərtərəfli və ahəngdar inkişafına kömək edir, onlarda elmi dünyagörüşün formalaşmasına təkan verir. Belə ki, yeniyetmələrin vətən, el, oba, ailə qeyrəti, vətəndaşlıq borcu, şərəfi, ləyaqəti, daxili vicdanı yetkinləşir və fəaliyyətinin əsas motivinə çevrilir, özünüdərkə kömək edir.

Yeniyetmələrin milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsində mühüm rol oynayan sinifdənkənar işlərdən biri kitab və bədii əsərlərin müzakirəsidir. Yeniyetmələrin bədii təfəkkürünü, dünyagörüşünü bədii əsərlərin müzakirəsi iki istiqamətdə təsir edir. Birinci istiqamət odur ki, o, yeniyetmələrin həyata baxışlarını, başqalarına münasibətini formalaşdırır, digər tərəfdən onları özünütərbiyə etmək sirlərinə yiyələndirir. Bədii əsərlərin müzakirəsi həm də yeniyetmələrin yaradıcı təfəkkürünü zənginləşdirir, təxəyyül surətlərinin yaranmasına kömək edir.

Orta ümumtəhsil məktəblərində bədii ədəbiyyatın müzakirəsi milli-mənəvi dəyərlərin yeniyetmələrə geniş şəkildə aşılanması və onların bu ruhda tərbiyə olunmaları imkanları verir. İstər bədii əsərlərin, istərsə də, hər hansı bir şerin müzakirəsi şagirdlərin mənəvi dünyasına təsir edir, onlarda saf əqidənin yaranmasına səbəb olur. Müzakirələr zamanı həm də hadisələrə, təsvirlərə emosional münasibət yaranır. Yeniyetmə üçün əsərin başa düşülməsi gedişində emosiyaların və tərbiyənin təsir gücü böyük olur və o, daxili tələbata çevirmək zərurəti yarada bilir. Bu tələbatın ödənilməsində məhz estetik tərbiyəvi informasiya duyumunun olması kömək edir. Əsərin verdiyi müsbət informasiya qavranıldıqda aydın olur ki, doğrudan da əsər

yeniyetməyə tam tərbiyəvi təsir göstərə bilir və hadisələrin tərbiyəvi imkanlarını emosional tablolarla ona ötürə bilir.

Bədii əsərlərdə əks olunan məsələlər onun müəllifinin həyat duyumudur, yiyələndiyi mənəvi dəyəridir. O da aydındır ki, müzakirə olunan hər bir əsərin tərbiyəvi cəhətləri müəllif düzgün duyulduğu zaman tam aydın dərk oluna bilir. Müzakirə zamanı müəllim yerində çıxış etməli, onlara yazıçı duyumu ilə yanaşmalıdır.

Bədii təhlil geniş anlayışdır və onun aspektləri saysızdır. Bu anlayışın məxrəcində müəllim dayanırsa, surətində şagird dayanır. Hər ikisi bərabərdir.

Bədii əsərlərin müzakirəsi yeniyetmələrdə əxlaqi təsəvvür və ideyaların formalaşmasında daha böyük imkanlara malikdir. Bədii ədəbiyyat həm də qüdrətli tərbiyə vasitəsidir. O, həyatı və insan münasibətlərini dərk etməyə kömək göstərir. Tərbiyə işində bədii əsərlərin müzakirəsində geniş istifadə etmək lazımdır. Belə müzakirələr həm də bədii ədəbiyyata maraq, mütaliə tələbatı yaratmaq baxımından əhəmiyyətlidir.

Hər hansı bir məsələnin öyrənilməsinə az vaxt sərf etmək, qazandığı biliklər sistemini uzun müddət yadda saxlamaq hər bir insanın arzusudur. Lakin biliklər sistemini dərk etmək və onu uzun müddət yadda saxlamaq hamıda eyni cür olmur. K.D. Uşinski göstərir ki, pərakəndə, əlaqəsiz biliklərlə dolu olan baş hər şeyi qaydasız şəkildə tökülmüş anbara oxşayır, burada anbar sahibinin özü də heç bir şey tapa bilməz. Bu fikri tərbiyəvi biliklərin sistemli aşılanmasına da aid etmək olar. Çünki yeniyetmələrə aşılanacaq mənəvi dəyərlər tərbiyənin tərkib hissələri üzrə müntəzəm xatırladılarsa, "anbar sahibi" onların yerlərini və əlamətlərini heç vaxt unutmaz. Bədii əsərlərin müzakirələrini, tərbiyənin tərkib hissələrini nəzərə almaqla, problem baxımından aşağıdakı istiqamətdə qruplaşdırmaq məqsədəuyğun hesab edilir:

1. Əməyi tərənnüm edən mövzulara aid əsərlərin seçilməsini yeniyetmələrin öhdəsinə buraxmaq.
2. Estetik və ekoloji məzmun daşıyan əsərlərin milli-mənəvi dəyərlər baxımından müqayisəli müzakirəsinin metodikasını qurmaq.
3. Ölkəmizə şöhrət gətirən idmançıların fəaliyyətini əks etdirən əsərlərin seçilməsini və müzakirəsinin quruluşunu müəyyənləşdirməyi yeniyetmələrə həvalə etmək.
4. Torpaqla, onun sərvətləri ilə bağlı əsərlərin seçilməsi və vətənin təbiətini əks etdirən tablolardan ibarət sərginin təşkili üçün yeniyetmələrə göstəriş vermək.
5. Vətəndaşlıq borcunun məzmununu əks etdirən kitabların toplanmasında və sisteminin hazırlanmasında yeniyetmələrin gücündən istifadə etmək.
6. Problem baxımından sinifdənkənar oxu üçün nəzərdə tutulmuş mövzuların müzakirəsini keçirmək. Yeniyetmələri mətnin milli-mənəvi yönümünü tapmağa yönəltmək.

Bədii əsərlərin müzakirəsinin optimal yollarından biri də bilavasitə tanıdıqları yüksək mənəvi dəyərləri ilə seçilən şəxsiyyətlərin əsərlərinin öyrənilməsidir.

Yeniyetmələr tapşırılan şəxsiyyətlərin əsərlərini oxuduqda bir tərəfdən əsərin milli-mənəvi çalarlarını öyrənirlər, digər tərəfdən isə müəllifin şəxsiyyətini qabarıq şəkildə mənimsəmiş olurlar.

Bədii ədəbiyyat insanın mənəvi-estetik inkişafı prosesində müstəsna əhəmiyyətə malik bir vasitədir. N. Çernışevskinin qeyd etdiyi kimi, elmi ədəbiyyat insanları nadanlıqdan, bədii ədəbiyyat isə kobudluq və bayağılıqdan xilas edir.

Pedaqoji fikir çərçivəsində bədii ədəbiyyatın tərbiyəvi rolu məktəb proqramları ilə məhdudlaşdırılır. Amma ədəbiyyat elə böyük miqyaslı bir hadisədir ki, o, dərs prosesinə, bütövlükdə təhsil sisteminə sığışa bilməz. Bu baxımdan, bədii ədəbiyyatın tərbiyəvi rolu iki miqyasda nəzərdən keçirilməlidir. Birincisi, dar mənada, məktəb miqyasında, şagirdlərin dünyagörüşünü

və bədii-estetik zövqünü formalaşdıran vasitələrdən biri kimi. İkincisi, insanı bütün ömrü boyu müşayiət edən, ancaq bədii oxu vasitəsi ilə deyil, həm də teatr, kino, televiziya vasitəsi ilə ona mənəvi-estetik mühit yaradan universal vasitə kimi.

O, Şpenqlerin dediyi kimi, «millətin əsasında ideya dayanır». Lakin ideyanın geniş xalq kütlələrinə çatdırılmasının ən optimal və anlaşıqlı vasitəsi nədir? Elmi-fəlsəfi fikir ancaq intellektual elita üçün əlçatandır. Bədii ədəbiyyat isə ən dərin ideyanı da obrazlarla ifadə etdiyi üçün onun oxucuları çoxdur və deməli, təsir dairəsi də qat-qat böyükdür. Xüsusən şifahi xalq ədəbiyyatı, aşıq sənəti əslində milli ruhun bilavasitə ifadəsi olduğundan onu dərk etmək üçün nəinki alim olmağa ehtiyac yoxdur, hətta alimlik burada milli kökdən uzaqlaşma mənasında, olsa-olsa ziyan gətirə bilər. M.Ə. Rəsulzadə bu məsələni çox gözəl qoymuşdur: "Milliyət hissini itirməyənlər və milliyyət ruhundan uzaqlaşmayanlar üçün aşıq Kərəmdə, Koroğluda və bunun əmsalındakı nəğmələrdə o qədər ülvi hisslər və o qədər geniş zövqlər vardır ki, onu ancaq saz nəğməsi ilə oxunduğu zaman hekayə qəhrəmanının dərdinə tamamilə aşina ola bilən köylülər qədər saf və pak ürəklərimiz anlaya bilərlər".

**Məqalənin aktuallığı.** İnformasiya texnologiyalarının sürətli inkişafı cəmiyyətin bütün sahələrində dünyaya inteqrasiyanı təmin etməkdədir. Müasir təhsilin qarşısında duran ən mühüm vəzifələrdən biri milli mənsubiyyətinə, adət-ənənəsinə bağlı, bəşəri dəyərlərə yiyələnməyi bacaran vətəndaş yetişdirməkdir. Bədii ədəbiyyat qüdrətli tərbiyə vasitəsidir. O, həyatı və insan münasibətlərini dərk etməyə kömək göstərir

**Məqalənin elmi yeniliyi.** Yeniyetmələrin milli-mənəvi dəyərlər əsasında tərbiyəsində bədii əsərlərin müzakirəsinin rolunu qabartmaq.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqaləm müəllimlər, təhsil işçiləri, elmi işçilər, doktorantlar, magistrantlar, tələbələr üçün çox dəyərli mənbədir.

## Ədəbiyyat

1. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2013.
2. Azərbaycan şifahi xalq ədəbiyyatı antologiyası. Bakı: Çaşıoğlu, 2004.
3. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı, Mütərcim, 2010.
4. Qasımova L. Məktəblilərin milli mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı, 2004.
5. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2013.

**Ш.М. Надирова**

## Роль обсуждения художественных произведений в воспитании подростков на основе национально-нравственных ценностей

### Резюме

Азербайджан, известный своими национально-нравственными ценностями, занимает уникальное место в мире человеческих идей, обычаев и национальностей, которые живут и распространяются.

Обсуждение художественной литературы предоставляет подросткам широкие возможности для формирования моральных идей и идей. Художественная литература также

является мощным образовательным инструментом. Это помогает понять жизнь и человеческие отношения. Следует широко использовать при обсуждении художественных произведений в воспитательной работе. Такие дискуссии также важны с точки зрения художественной литературы и необходимости чтения. Художественная литература - это инструмент, который играет важную роль в процессе нравственно-эстетического развития человека. Как отметил Н. Черницевский, научная литература спасает людей от невежества, а литературная литература избавляет от грубости и невежества.

**Sh.M. Nadirova**

## The role of discussion of fiction works in the education of adolescents based on national and moral values

### Summary

Azerbaijan, known for its national moral values, occupies a unique place in the world of human ideas, customs and nationalities that live and spread.

Discussion of fiction has a great deal of opportunity for adolescents to form moral ideas and ideas. Fiction is also a powerful teaching tool. It helps to understand life and human relationships. It should be widely used in the discussion of fiction works in educational work. Such discussions are also important in terms of fiction and the need for reading. Fiction is a tool that plays an important role in the process of moral and aesthetic development of a person. As noted by N. Chernitsevsky, scientific literature saves people from ignorance, and literary literature saves people from rudeness and ignorance.

**Redaksiyaya daxil olub:** 27.02.2020